Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
Layihənin istiqaməti:
" İctimai və dövlət maraqlarının müdafiəsi"

# Bir essenin işığı ilə

## Və yaxud 60 yaşın akademik hesabatı

**Bir ay bundan əvvəlin söhbətidir. Fakültədə səhər qəzetlərini gözdən keçirirdim. Nəzəriyyəçi alim Cahangir Məmmədli əlində "Kaspi" qəzetini tutaraq soruşdu ki, "Qərənfil xanım, bugünki sayda "Qəlbin iki dastanında eşq" adlı çox gözəl bir esse çap edilib. Oxumusanmı?".**

Doğrusunu deyim ki, oxumamışdım. Cahangir müəllimin bu sözlərindən sonra oxudum. Əvvəlcədən onu qeyd edim ki, doğrudan da esse çox gözəl yazılıb, janrın bütün tələb və xüsusiyyətlərinə əməl edilib. İmzaya baxdım. "Tehran Əlişanoğlu". İmza bir ədəbiyyatşünas alimə məxsus olmasına baxmayaraq, esse əsl jurnalist qələmi ilə yazılmışdı. Etiraf edim ki, esse yazmaq çox çətin olduğu üçün bu gün dövrü mətbuatımızın səhifələrində çox az-az hallarda rast gəldiyimiz janrlardan biridir. Çox sağ olun, Tehran müəllim, ədəbiyyat sevgisindən yoğurulmuş söz əşqiniz tükənməsin!

O ki qaldı bu essenin qəhrəmanı filologiya elmləri doktoru, professor Bədirxan Əhmədova və onun bu il elmi ictimaiyyətimizin ixtiyarına verdiyi "XX yüzil Azərbaycan ədəbiyyatı; mərhələlər, istiqamətlər, problemlər" (Bakı, "Elm və təhsil", 2015) adlı monoqrafiyasına deyərdim ki, elə əhatə etdiyi yüzillik kimi möhtəşəm, fundamental bir elmi əsərdir. Belə olmasaydı Mədəniyyət və Turizm Nazirliyinin 2015-ci il "Qızıl kəlmə" mükafatına layiq görülməzdi ki...

Tehran müəllim, Siz demiş, bu, təkcə Bədirxan müəllimin deyil, bütövlükdə N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun və ona rəhbərlik edən hörmətli akademik İsa Həbibbəylinin son vaxtlar apardığı islahatların, elmi istiqamətdə görülən işlərin uğurudur. Bir sözlə, Azərbaycan ədəbiyyatşünaslığının uğurudur.

Monoqrafiyada bütövlüklə 20-ci yüzilliyin ədəbi prosesinə, mərhələ və problem təsnifatına elmi, nəzəri, konseptual baxış ifadə olunur. Elə ona görə də bu fundamental elmi araşdırma hələ bir çox yeni tədqiqat əsərinin yaranmasında heç şübhəsiz ki, böyük rol oynayacaq. Yalnız tələbələrimizin deyil, həmçinin universitet müəllimlərimizin, gənc tədqiqatçılarımızın dəyərli stolüstü kitabına çevriləcəkdir.

2015-ci ilin ilk aylarından qəzet və jurnal səhifələrində, telekanallarda bu tədqiqatçı alimin uğurları haqqında oxuyuruq, eşidirik. Başqalarını deyə bilmərəm, amma mən bu diqqətə, qayğıya çox sevindim. Çünki Bədirxan müəllimi hələ 1990-cı illərin əvvəllərindən tanıyıram, bacarığına, elmi prinsipiallığına və ən əsası, zəhmətkeşliyinə çox yaxşı bələdəm. Uzun illər "Vətən səsi", "Ekspress", "Azərbaycan ordusu" kimi tanınmış mətbu orqanlarında bir söz əhli kimi yetişərək publisistikanın, jurnalistikanın dili ilə dediklərini elmi yolla sübut etmək üçün üz tutub onun tədqiqinə, təhlilinə, elmi sübutuna.

Müəllifin "XX yüzil Azərbaycan ədəbiyyatı; mərhələlər, istiqamətlər, problemlər" monoqrafiyası essedə deyildiyi kimi "Bədirxan Əhmədovun ömrün 60 yaşına əsl akademik hesabatıdır". Bu hesabat uzun illərin gərgin zəhmətinin, yuxusuz gecələrinin, saysız-hesabsız arxiv materiallarının araşdırılması hesabına ədəbiyyatşünaslıq elmimizə verilən "layiqli töhfədir". Təbii ki, bu hesabat layiqli töhfəsini dövləti və xalqı tərəfindən aldı...

Bədirxan Əhmədov tədqiqatında Azərbaycan ədəbiyyatının milli hərəkat dövrü və onun realizim, romantizim, maarifçi realizim, cümhuriyyət ədəbiyyatı, sosrealizim və 60-cı illər mərhələləri, ədəbi prosesin xarakteri, nəsr, poeziya, dramaturgiyanın inkişaf yolları, eləcə də repressiyanın genezisi, mühacirət və legion ədəbiyyatı və s. bu kimi problemlər çağdaş meyarlarla araşdırma obyekti olur. Müəllif bütün bunlara yalnız yeni yanaşma metodu ilə kifayətlənmir. O, həm də həmin dövrün ədəbi prosesinə və ədəbi prosesdə indiyədək tədqiqatdan kənarda qalan, yaxud qeyri-obyektiv tədqiq edilən əsərlərin fundamental araşdırılmasına geniş yer verir.




Tədqiqatçı alim ədəbiyyatımızın ən zəngin və eyni zamanda ziddiyyətli dövrü olan sovet ədəbiyyatşünaslığına çox həssaslıqla yanaşır. Sovet ədəbiyyatşünaslığının "mürtəce romantik" adlandırdığı və qiymətləndirdiyi dövrə xüsusi bir qayğı ilə yanaşıb. Nəticədə tədqiqat əsərində Tehran müəllimin təbirincə desək, "Azərbaycan xalqının, millətinin ədəbiyyatı kimi görə, izləyə, təqdim edə bilib. Metodolojisi məxsusi vurğulanmasa da, prinsipcə köhnə sovet ideolojisinin yerini tutmuş Azərbaycançılıq ideologiyası" özünü bütövlüklə əks etdirir.

Bir neçə il (1983-1990) Nazirlər Kabineti yanında Baş Arxiv İdarəsinin poleoqrafı, baş poleoqrafı, şöbə müdiri vəzifələrində çalışan tədqiqatçı alim ən kiçik fakta belə əsl alim qayğısı ilə yanaşıb. Təbii ilk məxəzdən, mənbədən qidalanmaq tədqiqatçıya nüfuz, əsərinə isə sanbal gətirir. Əsərlə tanış olarkən aydın olur ki, tədqiqatçı alim faktları sadalamaqla, hadisələri təsvir etməklə kifayətlənmir. Onları təhlil edir, ümumiləşdirir, münasibət bildirir, müəyyən elmi-nəzəri qənaətlərə gəlir. Tutarlı fakt, möhkəm məntiq, doğru mülahizə, məharətli ümumiləşdirmələr, sanballı nəticələr bir daha sübut edir ki, bu əsər 21-ci yüzilliyimizin başlanğıcında yazılan fundamental əsərlərdən biridir.

Bildiyimiz kimi, 20-ci yüzilliyin əvvəlləri, xüsusən də ilk iki onilliyi Azərbaycan tarixinin, ədəbiyyatının, milli oyanışının və dirçəlişinin ən zəngin dövrüdür. Bu dövrün tədqiqatçıları demiş həmin vaxt həyat bütün sahələrdə sanki qaynayırdı. Bədirxan müəllim də bu dövrün ədəbiyyatının mərhələ və problemlərini təhlil edərək bütövlükdə ədəbi prosesə, ictimai-siyasi formasiyaya, iqtisadi inkişafa və xüsusən də bu inkişafın ədəbiyyatımızın, mətbuatımızın, mədəniyyətimizin dirçəldilməsinə təsirinə diqqət yetirmiş və qiymətləndirmişdir. Müəllif yazır ki, "Ədəbi mühitin inkişafını şərtləndirən amillərlə yanaşı, ədəbi proses üçün qeyri-məqbul hesab olunan basqılar, siyasi repressiyalar, senzura və müxtəlif "izm"lərin təşəkkülü də məhz bu yüzilin payına düşür. Deməli, yola saldığımız yüzillik xalqımız üçün yalnız siyasi cəhətdən deyil, ədəbi, mədəni, kulturoloji cəhətdən də yeni bir mərhələ hesab oluna bilər".

Əslində hesab oluna bilər yox, elə hesabdır. Çünki bu yüzillikdə ədəbi mühitimizdə romatizim və realizim kimi iki möhtəşəm ədəbi məktəb yarandı və formalaşdı. Məhz onların sayəsində ölkəmiz də milli dövlətçilik ideyası formalaşdırılaraq Şərqdə ilk demokratik respublikanın qurulmasına nail oldu.

**Tehran müəllim, Siz demiş, bu, təkcə Bədirxan müəllimin deyil, bütövlükdə N.Gəncəvi adına Ədəbiyyat İnstitutunun və ona rəhbərlik edən hörmətli akademik İsa Həbibbəylinin son vaxtlar apardığı islahatların, elmi istiqamətdə görülən işlərin uğurudur.**

Doğrudan çox çətindir. Böyük bir yüzilliyin çoxcəhətli və çoxsahəli şəkildə inkişaf etmiş ədəbiyyatını, ədəbi prosesini, milli düşüncə tərzini öyrənmək, dəyərləndirmək və obyektiv qiymətləndirmək. Günlərlə, aylarla arxiv və kitabxanalarda axtarıb araşdırmaq, sayı-hesabı olmayan sənədlərin, qəzet materiallarının arasından ən dəyərlisini, faydalısını tapmaq, onları öyrənmək, oxumaq, təhlil etmək, fikir və mülahizələrini, qənaətlərini əsaslandırmaq bir insanın, tədqiqatçının ömrünə sığmayan bir işdir.



**Qərənfil Dünyamin qızı,**
**Filologiya üzrə fəlsəfə doktoru,**
**BDU-nun dosenti**

Ona görə də çəkinmədən deyə bilərik ki, Bədirxan müəllim ömrünün çox yarısını bir tədqiqatçı alim kimi bu xeyirxah işin yolunda "xərcləyib". Əvəzində isə yüz illər yaşaya biləcək bir neçə fundamental, sanballı, elmi çəkisi və dəyəri ilə diqqəti cəlb edən əsərlər ortaya qoyub. Azərbaycan ədəbiyyatının milli hərəkat dövründən başlayaraq "yeni mərhələ" adlandırılan 60-cılara kimi olan bir ədəbi yola işıq salıb, qaranlıqları işığa qərq edib.

Uzun illər sovet yazarlarının özlərini belə çaş-baş qoyan "formaca milli, məzmunca sosialist" formuluna aydınlıq gətirən, "sosializm sosial gerçəkliyi deyil, sosializm gerçəkliyini əks etdirməyi qarşıya məqsəd qoyduğundan həyat birtərəfli təsvir edilirdi" söyləyən müəllif çox haqlıdır.

Bir mətbuat tarixi araşdırıcısı kimi diqqətimi cəlb edən əsərin birinci bölməsinə aid olan "Mətbuat və publisistikanın hərəkat dövrü oldu". Müəllif çox haqlı olaraq qeyd edir ki, "Aydındır ki, ictimai-siyasi, ədəbi prosesi intensivləşdirən və funksionallığını artıran əsas faktorlardan biri mətbuatın mövcudluğudur". Xalqın "danışan dili, hiss edən ürəyi və anlayan əqli" olan mətbuatın bu sahədəki rolunu ətraflı şərh edən, "XX əsrin ən böyük ədəbi hadisəsi olan "Molla Nəsrəddin" və "Füyuzat", "qarşıdurmaları"na bir daha aydınlıq gətirən Bədirxan müəllim yazır: "Mollanəsrəddinçilik özünə kənardan baxmağı və tənqid etməyi bacaran yeni bir nəsil formalaşdırdısa, füyuzatçılıq türk xalqlarının milli özünüdərkini reallaşdırdı, milli şüurunu bir yerə topladı".

...Sonda insanlığına, ədəb-ərkanına böyük hörmət etdiyim, (ömrün ən çətin, qayğılı dolaylarından keçərək şöhrətin ən uca zirvəsində qərarlaşdığı anda belə dəyişməyən) elmi prinsipiallığına bələd olduğum, publisist qələmində hər an milli soy kökə bağlılığını duyduğum, elə 25 il əvvəl həm xaricən, (Tehran müəllim demiş: "...qarasaç, qıvraq, şux) həm də daxilən (ağayana, böyük-kiçik yeri bilən) necə görmüşəmsə bu gün də elə olan bu qələm yoldaşımıza, əqidə məsləkdaşımıza Tanrıdan uzun ömür və bolbol yaradıcılıq uğurları arzulayıram.

*Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.*